**Elektron mağazaların yaradılması istiqamətində tədbirlərə başlanılıb**

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi (RİTN) ölkəmizdə elektron ticarətin (e-ticarət) tətbiqinin genişləndirilməsi məqsədilə yeni layihələr üzərində işləyir. Nazirlikdən verilən məlumata görə, e-ticarətin miqyasının genişləndirilməsində ən mükəmməl layihələrdən biri hesab olunan elektron mağazaların yaradılması istiqamətində tədbirlərə başlanılıb. Elektron mağazaların təşkili layihəsinin, paytaxtla yanaşı, respublikamızın bütün bölgələrində həyata keçirilməsi nəzərdə tutulur. Bu məqsədlə müxtəlif bölgələrin mövcud kommunikasiya sistemlərinin vəziyyəti, infrastruktur təminatı təhlil olunur, eyni zamanda vətəndaşların e-ticarətlə bağlı hansı məlumatlara malik olması öyrənilir.
Rabitə və informasiya texnologiyaları nazirinin müavini İltimas Məmmədovun sözlərinə görə, biznes sektorunun fəaliyyətinin müasir dövrün tələblərinə uyğun formalaşdırılması, genişmiqyaslı elektron ticarət (e-ticarət) sisteminin inkişaf etdirilməsi Azərbaycan hökumətinin hədəf seçdiyi əsas prioritetlərdəndir. Artıq Azərbaycanda «Elektron hökumət»in formalaşması yeni mərhələyə qədəm qoyub və bu proses çərçivəsində tətbiq olunan e-xidmətlərin çeşidləri artmağa başlayıb. Son bir ildə elektron imza infrastrukturunun yaradılması, elektron sənəd dövriyyəsinin genişlənməsi, dövlət orqanları, əhali və biznes qurumları arasında elektron xidmətlərin həyata keçirilməsi e-ticarət üçün əlverişli şərait deməkdir. Hazırda respublikamızın rabitə sektoru da nağdsız ödəmələrin genişləndirilməsinə və digər əməliyyatların elektron formada aparılmasına tam imkan verir. Ölkəmizdə İKT-nin inkişafı, mövcud infrastruktur təminatı, yeni elmi-texniki yeniliklər e-ticarətin daha geniş miqyasda tətbiq olunmasına əla fürsət yaradır.
RİTN elektron mağazaların təşkili üçün bölgələrdə elektron resursların hazırlıqlı olduğunu bildirir. Mövcud vəziyyət rayonlarda internet mağazaların yaradılmasının mümkünlüyünü şərtləndirir. Hələlik layihənin pilot mərhələsində bir neçə rayonda bu prosesə start verilməsi planlaşdırılır. Növbəti mərhələdə isə internet-mağazaların sayının artırılması, elektron ticarətin digər formalarının tətbiq olunması nəzərdə tutulur.
Xatırladaq ki, Azərbaycanda «Elektron ticarət haqqında» Qanun 2005-ci ildə qəbul olunsa da, bu sahənin ilkin cücərtiləri yalnız 2008-ci ildə özünü göstərməyə başlayıb. Bunun ən əsas səbəblərindən biri internet üzərindən ödəmə sisteminin olmaması idi. 2008-ci il dekabrın 2-də isə «SilverKey Azərbaycan» şirkəti Azərbaycanda ilk dəfə olaraq «Visa» və «MasterCard» tərəfindən xüsusi lisenziya almış «GoldenPay» adlı onlayn ödəmə sistemi qurub, şirkətlərə və dövlət qurumlarına təqdim edib. Yalnız bundan sonra Azərbaycanda elektron ticarət formalaşmağa başlayıb.
E-ticarəti elektron ödənişlərin geniş miqyasda həyata keçirilməsi üçün ən mükəmməl vasitə sayan «GoldenPay» şirkətinin təsisçisi Fərid İsmayılzadə son illər ölkəmizdə müasir texnologiyalardan istifadənin hüdudlarının genişlənməsinin bir çox xidmətlər kimi onlayn ticarətə də tələbi artırdığını və bu sahədə müsbət dinamikanın müşahidə olunduğunu bildirir. Müasir İKT-dən iqtisadiyyatın real sektorlarında geniş istifadə olunması təsərrüfatların bazar infrastrukturunun bütün sahələrində - maliyyə, ticarət, biznes və s. informasiya texnologiyaları əsaslarına çevirməyə imkan verir. Bu isə elektron biznes mühitinin texnoloji bazisinin, elektron kommersiyasının, informasiya marketinq şəbəkələrinin yaradılmasına imkan verir.
Onun fikrincə, hazırda bu sistem vasitəsilə öz məhsul və xidmətlərini satışa çıxarmaq istəyən şirkətlərin sayı 200-ə yaxınlaşmaqdadır. Təkcə «GoldenPay» şirkətinin təklif etdiyi hesab.az internet resursuna əhaliyə kütləvi ödəmə xidmətləri göstərən 25-dən artıq böyük şirkət və 15 mindən artıq aktiv istifadəçi qoşulub. Şirkətlər arasında Azərbaycanın mobil operatorları, kabel televiziyası operatorları, internet operatorları və telefon rabitəsi var. F.İsmayılzadənin sözlərinə görə, ticarət sektorunda elektron ödəmələrin miqyasını artırmaq üçün ölkəmizdə kifayət qədər infrastruktur mövcuddur. Hazırda əsas hədəflərdən biri ticarət məntəqələrini də onlayn ödəmələrə cəlb etməkdir. Qarşıdakı mərhələdə mal və xidmətlərin internet üzərindən satışını təşkil etmək, elektron mağazalar yaratmaq üçün müvafiq qurumlarla birgə layihə həyata keçiriləcək.
E-ticarətin ən geniş yayılmış formalarından biri olan virtual ticarət mərkəzinin infrastrukturu da genişlənməkdədir. Bu resurs vahid platforma çərçivəsində Azərbaycanın müxtəlif internet-dükanlarını birləşdirən internet məkanıdır və əsas məqsədi ölkədə elektron-ticarətin inkişafına yeni

təkan verməkdən ibarətdir. Onun konsepsiyasına əsasən, bütün ticarət şirkətlərinin platformasında pulsuz olaraq virtual dükanın açılması üçün imkanlar yaradılır.
F.İsmayılzadə elektron ticarətin Azərbaycanda nağdsız ödənişlər bazarının inkişafına təkan verəcəyinə və yaxın illərdə ölkəmizin bu sistemə tam inteqraksiya olunacağına inandığını qeyd edir. Onun fikrincəç, e-ticarət Azərbaycanda «nağdsız cəmiyyət»in yaradılmasına səbəb olacaq.
Nağdsız ödənişlər bazarının inkişafı isə şəffaflığın təmin olunmasına töhfə verir, xərcləri minimuma endirir, əhalinin və biznesin işini rahatlaşdırır. Elektron ödəmə ən yüksək təhlükəsizlik və dələduzluq əməllərindən qorumanın təşkil edilməsinə də mühüm təsir göstərir. Bu sistemin ən böyük üstünlüklərindən biri isə vergidən yayınma hallarının qarşısının alınmasıdır.

Elbrus CƏFƏRLİ